Azərbaycan.- 2020.- 30 dekabr. S. 4.

# Qüdrətli dövlətin güclü büdcəsi

2021-ci ilin dövlət büdcəsinin hazırlanması, müzakirəsi və qəbul edilməsi əvvəlki illərdən fərqli olaraq Azərbaycan xalqının çox gərgin və həyəcanlı anlar yaşadığı və son nəticədə şərəfli qələbə ilə yekunlaşan dövrə təsadüf etmişdir. Belə ki, cari ilin əvvəlində koronavirus (COVID-19) pandemiyasının baş verməsi və tüğyan edərək bütün dünyanı çənginə alması digər ölkələr kimi, Azərbaycan Respublikasının sosial, iqtisadi inkişafına da öz mənfi təsirini göstərmiş, bir çox sahələrdə nəzərdə tutulan layihə və proqramların həyata keçirilməsinə əngəl törətmişdir.



Digər tərəfdən pandemiyanın ölkə iqtisadiyyatının inkişafına maneə törətməsinin davam etdiyi bir vaxtda mənfur qonşumuz Ermənistan tərəfindən iyul ayında Tovuz rayonu istiqamətində ərazimizə hücum əməliyyatlarına cəhd göstərilmiş və Azərbaycan Silahlı Qüvvələri tərəfindən ermənilərin bu qanlı təxribatının qarşısı qətiyyətlə alınmışdır. Lakin azğınlaşmış düşmən bundan özünə lazımi dərs almaq əvəzinə sentyabr ayının 27-də ölkəmizin ərazisində yeni torpaqlar zəbt etmək xülyası ilə hücuma keçmişdir. Bu hücumu dəf etmək, dövlətimizin müstəqilliyini və suverenliyini qorumaq, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan möhtərəm İlham Əliyevin əmri ilə ordumuz əks-hücum əməliyyatına başlamışdır. Azərbaycan xalqı və Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə dəmir yumruq kimi birləşib qardaş Türkiyədən, xaricdə yaşayan azərbaycanlılardan, bizə dost olan dövlətlərdən mənəvi dəstək alaraq Vətən müharibəsinə başladı və vəhşi düşməni 44 gün ərzində darmadağın edərək təslim olmağa məcbur etdi. Cəmi ay yarım davam edən bu Vətən müharibəsində Azərbaycan Respublikası Ermənistan üzərində qətiyyətli və şərəfli hərbi-siyasi qələbə qazandı və 30 ilə yaxın müddətdə himayədarlarının köməyi ilə ermənilərin işğalda saxladıqları torpaqlarımız azad edildi.

Pandemiyanın hələ də davam etdiyi və təcavüzkar Ermənistanla qısamüddətli də olsa müharibə apardığımız, habelə əsas ixrac məhsulumuz olan neftin qiymətinin aşağı olduğu bir dövrdə 2021-ci ilin dövlət büdcəsi hazırlanaraq qəbul edilmişdir. Pandemiyanın və müharibənin vurduğu zərər nəticəsində 2020-ci ildə dövlət büdcəsinin gəlirləri 2019-cu ilə nisbətən çox cüzi miqdarda azalmış və büdcənin xərcləri isə 2.5 milyard manat artmışdır. Buna baxmayaraq respublikamızın 2021-ci il dövlət büdcəsinin 2020-ci ilə nisbətən gəlirləri 1.3 milyard manat və xərcləri 1.6 milyard manat artımla təsdiq edilmişdir. 2021-ci ilin dövlət büdcəsinin gəlir və xərclərinin əvvəlki illərə nisbətən əsaslı artımla təsdiq edilməsi gələn ilin dövlət büdcəsinin əsas xüsusiyyətlərindən biri olmaqla yaranmış vəziyyətlə bağlı ölkəmizin qarşısında duran yeni çağırışlardan irəli gələn şərəfli və məsuliyyətli vəzifələrin icrası üçün maliyyə təminatının yaradılmasıdır. Bu da onu sübut edir ki, möhtərəm Prezident İlham Əliyevin son 17 il ərzində Azərbaycan Respublikasına rəhbərlik etdiyi müddətdə iqtisadi, sosial, ordu quruculuğu və milli təhlükəsizlik sahələrində uzaqgörənlik və uğurla həyata keçirdiyi siyasət nəticəsində ölkəmizdə davamlı və dayanıqlı iqtisadiyyat yaradılmış, əhalinin sosial rifah halı əsaslı surətdə yaxşılaşmış, rəşadətli və yenilməz ordu formalaşmışdır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Respublikası Vətən müharibəsində Ermənistan üzərində şərəfli hərbi-siyasi qələbə qazanaraq, ikinci müharibə hesab edilən görünməz düşmən - pandemiyaya qarşı mübarizə aparan ən uğurlu ölkələr sırasında yer alıb. Bununla da müstəqillik əldə etdikdən sonra ilk dəfə ərazi bütövlüyü təmin edilən ölkəmizin dövlət büdcəsi hazırlanıb təsdiq edilmişdir.

2021-ci ilin dövlət büdcəsinin gəlirləri hesablanarkən koronavirus (COVID-19) pandemiyasının 2020-ci ildəki mənfi təsirinin 2021-ci ildə də davam etməsi, neft hasilatının azalmasına dair OPEK + sazişi, enerji bazarında baş verən dəyişikliklər, habelə beynəlxalq maliyyə qurumlarının proqnozları və ölkəmizin makroiqtisadi göstəriciləri nəzərə alınmışdır. Layihə hazırlandıqda neftin bir barelinin qiyməti 40 dollardan hesablanmış və 2021-ci il dövlət büdcəsinin gəlirləri 25427,0 milyon manat nəzərdə tutulmuşdur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 1303,0 milyon manat və yaxud 5,4 faiz çoxdur. Dövlət büdcəsinin gəlirlərinin 54,2 faizi və ya 13776,0 milyon manatı neft sektorunun, 45,8 faizi və ya 11651,0 milyon manatı isə qeyri-neft sektorunun payına düşür.

Neft sektoru üzrə dövlət büdcəsinin gəlirlərinin 88,6 faizini və ya 12200,0 milyon manatını Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfert, 11,4 faizini və ya 1576,0 milyon manatını isə vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar təşkil edir.

Qeyri-neft sektoru üzrə dövlət büdcəsinin gəlirlərinin 48,7 faizini və ya 5674,0 milyon manatını vergi orqanlarının, 33,5 faizini və ya 3900,0 milyon manatını gömrük orqanlarının xətti ilə daxilolmalar, 7,6 faizini və ya 880,0 milyon manatını dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan transfert, 2,1 faizini və ya 250,0 milyon manatını Mərkəzi Bankın mənfəətindən ayırmalar, 8,1 faizini və ya 947,0 milyon manatını digər gəlirlər təşkil edir.

2021-ci ilin dövlət büdcəsinin xərcləri 28543,0 milyon manat nəzərdə tutulmuşdur ki, bu da 2020-ci ilin proqnozuna nisbətən 1050,8 milyon manat və ya 3,8 faiz çoxdur. Son 5 ildə dövlət büdcəsinin xərcləri 60,8 faiz və ya 10791,7 milyon manat artmışdır ki, bu da ölkəmizdə formalaşmış iqtisadi siyasətin uğurla həyata keçirilməsi və dinamik inkişafın təmin edilməsi ilə bağlıdır.

Dövlət büdcəsi xərclərinin xalqın rifah halının yaxşılaşmasına yönəldiyini və ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafına xidmət etdiyini xarakterizə edən əsas amil onun sosialyönümlü və investisiyatutumlu olmasıdır. 2021-ci ilin dövlət büdcəsi xərclərinin təhlili onu deməyə əsas verir ki, əvvəlki illərdə olduğu kimi, gələn ildə də dövlət büdcəsi bu xüsusiyyətinə görə seçilir. Belə ki, 2021-ci il üçün dövlət büdcəsinin sosialyönümlü xərcləri (büdcə xərclərinin iqtisadi təsnifatına uyğun olaraq əməyin ödənişi, pensiya və müavinətlər, dərman, sarğı məmulatları və məhsullarının, ərzaq məhsullarının alınması xərclərinin cəmi) 11111,9 milyon manat məbləğində nəzərdə tutulmuşdur ki, bu da büdcə xərclərinin ümumi həcminin 38,9 faizini təşkil etməklə, 2020-ci illə müqayisədə 563,8 milyon manat və ya 5,3 faiz çoxdur. Onu da qeyd etmək lazımdır ki, son 5 ildə sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 3,8 faiz, natural ifadədə isə 4874,8 milyon manat və ya 78,2 faiz artmışdır. Bu da onu göstərir ki, ölkə əhalisinin sosial rifah halının yaxşılaşdırılması dövlətin daim diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, 2021-ci ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərcləri 2020-ci ilə nisbətən 455,7 milyon manat və ya 14,1 faiz çox olmaqla son 5 ildə bu xərclər 39,6 faiz artmışdır. Eyni zamanda gələn il ölkədə ehtiyac meyarının həddinin 160 manatdan 170 manata çatdırılması, yaşayış minimumunun 196 manat məbləğində müəyyən edilməsi proqnozlaşdırılır ki, bu da yoxsulluq səviyyəsinin azalmasına müsbət təsir göstərəcəkdir. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan Respublikası Prezidentinin dediyi kimi, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin mərkəzində insan amili, Azərbaycan Respublikasının vətəndaşları durur və bu amil 2021-ci ildən dövlət büdcəsinin əsas xüsusiyyətlərindən biridir.

2021-ci ilin dövlət büdcəsinin əsas istiqamətlərindən biri də ölkəmizin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi və milli təhlükəsizliyin təmin edilməsinə xüsusi önəm verilməsidir. Belə ki, məhz bu diqqət və qayğının nəticəsində Azərbaycan Respublikası cəmi 44 gün ərzində ölkəmizin ərazisinin 20 faizini 30 il işğalda saxlayan yağı düşmən - Ermənistan respublikası üzərində parlaq qələbə qazanaraq torpaqlarımızı azad etdi. Buna baxmayaraq hələ də xarici himayədarlarına arxalanaraq ölkəmizə qarşı ərazi iddialarından, təxribatlarından əl çəkməyən azğın düşməndən qorunmaq və əldə etdiyimiz hərbi üstünlüyü uzun müddət saxlamaq üçün müdafiə və milli təhlükəsizlik məsələlərinə bundan sonra da xüsusi diqqət və qayğı ilə yanaşmaq lazımdır. Bu məqsədlə də 2021-ci ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə 4585,8 milyon manat vəsait ayrılması nəzərdə tutulur ki, bu da 2020-ci ilə nisbətən 781,6 milyon manat və ya 20,5 faiz çoxdur. Bundan başqa, 2021-ci il dövlət büdcəsində əsaslı xərclərin maliyyələşdirilməsi üçün nəzərdə tutulan 8330,3 milyon manatın 2100 milyon manatı ölkəmizin müdafiə potensialının gücləndirilməsi və Silahlı Qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması üçün müdafiə təyinatlı layihələr və tədbirlərin maliyyə təminatına sərf ediləcəkdir.

2021-ci ilin dövlət büdcəsində əsaslı xərclər üçün nəzərdə tutulan vəsaitin 2,2 milyard manatı 44 günlük Vətən müharibəsində Müzəffər Ordumuzun böyük şücaət və qəhrəmanlıq göstərərək işğaldan azad etdiyi tarixi ərazilərimizə böyük qayıdışın təmin edilməsinə xərclənəcəkdir. Belə ki, işğaldan azad olunmuş ərazilərimizdə bu bölgə üçün yad və gəlmə olan erməni vandalları 30 il ərzində yaşayış və ictimai binaları yerlə-yeksan edərək dağıtmış, bütün infrasktur obyektlərini, Azərbaycan xalqının bir çox tarixi, maddi-mədəniyyət abidələrini məhv etmiş, yeraltı sərvətlərimizi vəhşicəsinə talan etmişlər. Ona görə də həmin ərazilərdə müasir infrastrukturun yaradılması, mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması yaşayış evlərinin və inzibati binaların tikintisi zərurəti yaratmışdır. Bütün bunlar ona görə lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daxili və xarici auditoriyalarda keçirilən konfrans, müşavirə və görüşlərdə böyük fərəh və inamla vurğuladığı kimi - Qarabağ Azərbaycandır!

Qarabağ həm də ona görə Azərbaycandır ki, həmin bölgədə xalqımıza məxsus bir çox tarixi, maddi-mədəniyyət abidələrinin mövcudluğu ilə yanaşı, Azərbaycan xalqının bu ərazidə min illərlə yaşadığını sübut edən təkzibolunmaz faktlar var. Qarabağ bölgəsində hazırda mövcud olan “Qarabağ” at cinsi, “Qarabağ” və “Qaradolaq” qoyun cinsləri, yerli şəraitə uyğun bitki sortları, Qarabağla bağlı bu gün də səslənən yüzlərlə musiqi əsərləri, geniş yayılmış Qarabağ xalçaları, mətbəx nümunələri və digər xalq yaradıcılığı sayəsində formalaşmış faktlar əsrlərdir ki, təsdiqlənmişdir. Yalnız min illər boyu daim eyni ərazidə yaşayan insanlar xalq seleksiyası yolu ilə bu heyvan cinslərini və bitki sortlarını yarada bilər, xalq mahnıları və digər musiqi əsəri yaddaşlara həkk olar, xalçalar evləri və sarayları bəzəyə bilər, milli yeməklər sağlam həyat vasitəsinə çevrilərək geniş yayılar. Ermənilər isə tarixi mənbələrdə göstərildiyi kimi, cəmi 180-200 il bundan əvvəl başqa bölgələrdən köçürülərək müəyyən siyasi məqsədlərlə Cənubi Qafqazda məskunlaşdırıldıqları üçün onlar xalq seleksiyası üsulu ilə heyvan cinsləri və bitki sortları yarada bilməzlər və yaratmayıblar. Onların erməni dilində Qarabağla bağlı xalq musiqi əsərləri yoxdur və ola da bilməz. Qarabağ ermənilərinə, eləcə də erməni millətinə məxsus geniş yayılmış xörəkləri də yoxdur. Ermənilər yalnız məskunlaşdıqları ərazilərdə yaşayan əhaliyə məxsus xalq mahnılarını, xalçaları, milli mətbəx nümunələrini və digər xalq yaradıcılığı məhsullarını oğurlayıb öz adlarına çıxarmaqla məşğul olur, xarici havadarlarının köməyi ilə buna bir çox hallarda nail olur və bununla da göstərmək istəyirlər ki, guya onlar bu ərazilərdə qədimdən yaşayırlar. Bütün bunlar onu göstərir ki, Qarabağ həm sözdə, həm də əməldə Azərbaycandır. Hazırda hələ döyüş əməliyyatları getdiyi bir vaxtda işğaldan azad edilən Qarabağ ərazilərində möhtərəm Prezident İlham Əliyevin göstərişi ilə ermənilər tərəfindən dağıdılan kommunikasiya xətlərinin bərpasına və yenidən qurulmasına başlanmışdı. Bu proses iqtisadiyyatın, sosial və mədəni həyatımızın bütün sahələrində çox intensiv surətdə davam edir. 30 ildən çox ata-baba yurdlarına qayıtmaq həsrəti ilə məcburi köçkün həyatı yaşayan yüz minlərlə insanın erməni vəhşiliyi nəticəsində viran qoyulan ərazilərə böyük köçün təmin edilməsi üçün 2021-ci ilin dövlət büdcəsindən ilk dəfə olaraq 2,2 milyard manat vəsait ayrılmışdır. 2021-ci ilin dövlət büdcəsinin əsas xüsusiyyətlərindən biri olan bu vəsait Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ bölgəsində 30 illik erməni faşizminin işğalına məruz qalmış şəhər və kəndlərimizin bərpası və yenidən qurulmasına, həmin ərazilərdə müasir infrastrukturların yaradılmasına (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin və inzibati binaların tikintisi və s.) sərf ediləcəkdir. Bu qədər böyük həcmli işin öhdəsindən qısa müddətdə gəlmək üçün hörmətli Prezidentin tapşırığı ilə icraçı qismində Azərbaycana dost olan ölkələrin müvafiq şirkətləri ilə danışıqlar aparılır və razılıq əldə olunur. Ümid edirik ki, doğma Qarabağ işğaldan azad olunduğu kimi, tezliklə erməni vəhşiliyinin nəticəsi olan xarabalıqlardan da azad olacaq və ölkəmizin digər bölgələri kimi inkişaf etmiş bir dilbər güşəyə çevriləcəkdir.

2021-ci ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri üçün 2835,0 milyon manat vəsait ayrılması nəzərdə tutulmuşdur ki, bunun da 2225,0 milyon manatı sosial və infrastruktur təyinatlı layihələrin (bina və qurğuların, yolların, meliorasiya və su təsərrüfatı obyektlərinin, içməli su təminatı və kanalizasiya sistemlərinin tikintisinə, yenidən qurulmasına və s.) maliyyələşdirilməsinə yönələcəkdir.

Gələn ilin büdcəsində kənd təsərrüfatı bölməsi üzrə 943,0 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2020-ci illə müqayisədə 45,4 milyon manat və ya 5,1 faiz çoxdur. Həmin vəsaitin 496,3 milyon manatı kənd təsərrüfatı tədbirləri üçün, 30 milyon manatı baytarlıq tədbirləri üçün, 405,8 milyon manatı meliorasiya, irriqasiya və suvarma sistemlərinin maliyyə təminatı üçün, 10,9 milyon manatı digər tədbirlər üçün nəzərdə tutulur. Onu da qeyd etmək lazımdır ki, son 5 ildə kənd təsərrüfatı bölməsi üzrə dövlət büdcəsinin xərcləri 357,6 miyon manat və ya 61,1 faiz artmışdır. Bu artım ölkəmizin milli təhlükəsizliyinin tərkib hissəsi olan ərzaq təhlükəsizliyinin təmin edilməsinə dövlətin göstərdiyi diqqət və qayğısının nəticəsidir.

Hesab edirik ki, Qarabağın işğaldan azad edilməsi nəticəsində yüz minlərlə hektar əkin sahəsinin dövriyyəyə daxil edilməsi ölkəmizdə əhalinin ərzaqla təminatını daha da yaxşılaşdırmaqla, bəzi məhsulların, xüsusilə, taxılın idxalını minimuma endirəcək, bir çox məhsulların ixracını isə xeyli artıracaqdır. Çünki əkin dövriyyəsinə yüz min hektarlarla münbit torpaqların daxil edilməsi (həmin torpaqların böyük hissəsi işğal altında olduğundan əkilib becərilmirdi) kənd təsərrüfatı məhsullarının istehsalının artımına öz böyük təsirini göstərəcəkdir.

Qeyd olunanlar onu deməyə əsas verir ki, xalq, ordu və hakimiyyət bir dəmir yumruq kimi Azərbaycan Respublikasının Prezidenti ətrafında birləşərək Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində möhtəşəm qələbə çaldığı kimi bütöv Azərbaycanın 2021-ci il büdcəsində nəzərdə tutulmuş bütün öhdəlikləri də şərəflə yerinə yetirəcək, işğaldan azad olunmuş əbədi torpağımız Qarabağ diyarı dirçələcəkdir.

***Eldar İBRAHİMOV,***
***Milli Məclisin İntizam komissiyasının sədri, professor***